525-ci qəzet.- 2023.- 26 iyun. S. 8.

# Səlim Babullaoğlu və Jalə İsmayıl beynəlxalq mükafatlara layiq görülüblər






Azərbaycanın tanınmış şair və tərcüməçiləri Səlim Babullaoğlu ilə Jalə İsmayıl 17-21 iyun tarixlərində Rumıniyanın Krayova şəhərində keçirilən "Mihay Eminesku" Dünya Poeziya Festivalına qatılıblar. Bu il XII dəfə keçirilən festivalda ədəbiyyatçılarımız festivalın direktoru, tanınmış rumın şairi, akademik İon Deakoneskunun dəvəti ilə iştirak ediblər. Festivalın xeyli maraqlı proqramı olub. Krayova İncəsənət Muzeyi və Nəbatat Bağı, Kalafat şəhəri "Stefan Marinku" Sənət Muzeyi, Krayova Tibb Universiteti, Brankuşi İncəsənət Muzeyi və Mədəniyyət Mərkəzi, Nikolar Romanesku Parkı və başqa tarixi yerlərdə, təhsil və sənət məkanlarında, habelə görkəmli rumın şairi Mihay Emineskunun abidəsi yanında gerçəkləşən festival boyu dəvətli şairlər şeirlər oxuyub, çıxışlar ediblər.

XII "Mihay Eminesku" Dünya Poeziya Festivalına rumıniyalı şairlərlə yanaşı, Azərbaycan, ABŞ, Almaniya, İtaliya, Fransa, İspaniya, Meksika, Seneqal, Makedoniya, Serbiya, Kosovo, Yunanıstan, Monteneqro, Belçika, Argentina, Bolqarıstan, Braziliya və Çilidən 30-a yaxın şair iştirak edib.